töküblər bayıra ki, fəhlələri ağıllandırsınlar. Təkcə sizin kimi məsuliyyətsiz bambılılar ehtiyatlı, tədbirli olmaq əvəzinə, boyunlarına xalta keçirməyə tələsirlər. Ağaları acıqlandırmaqdan nə xeyir qazanırsız? Ehtiyatla hərəkət eləmək lazımdır, addım-addım, inan mənə.

-Sovet İttifaqında kapitalist yoxdur, - etiraz elədim. - Onlarla çoxdan haqq-hesab çəkiblər. Orada adam başqasının hesabına dolana bilməz.

-Anarxistdilər də! Axı Tanrıdan da imtina eləyiblər! Onlar hər şeyi zor gücünə eləyirlər. Yox, yaxşısı budur sən mənə cəfəngiyat danışma, bolşeviklər haqqında heç nə eşitmək istəmirəm, mən dinc inkişaf tərəfdarıyam.

Qoca məni heyrətləndirdi: "dinc inkişaf"! Esterlanddan olan binəva qoca belə sözlərin mənasını haradan öyrənə bilərdi? Bu sual məni xeyli düşündürdü.

Budur, yaz gəldi. 1 may günü fəhlələr küçələrə axışdı. Əvvəllər olduğu kimi, yenı iki düşmən dəstəsi üzə-üzə gəlirdi. Dəstələrdən biri: "İnqilab! İnqilab! və Rusiya! Rusiya", - deyib çığıraraq canilərdən ibarət sürünü özünə tərəf çəkir, digəri - dinc inkişaf tərəfdarları isə sakit, ehtiyatla hərəkətə keçməyə çalışırdı.

1932-ci ilin 9 noyabrda island fəhlə hərəkatı üçün o əziz gündə Sovet İttifaqında idim. Ancaq evə dönəndən sonra həmin gün baş verənlərdən xəbər tutdum. Sən demə, şəhərə dədəlik edənlərin ağlına gözəl bir ideya girib: fəhlələrin əmək haqqını azaltmaq. Nəticədə bu şəhəri tikənlərin balaları ac qalıb. Şəhərin dədələri bir səslə qərar çıxarmışdı ki, bu ağır günlərdə ictimai işlərdən ötrü xəzinədən əlli min kron buraxılmasın. Onlar əsl təntənə ilə işsizlik bayramını qarşılamağa, şəhəri tikən bu axmaqları başlarından eləməyə hazırlaşırdılar. Ağalar fəhlələrə sübut etmək istəyirdilər ki, onlara qətiyyən ehtiyacları yoxdur, fəhlələr hara istəyirlərsə, cəhənnəm olub gedə bilərlər.

Axı bələdiyyənin nəyi yaxşıdır?! Bir-iki yekəqarının əlini havaya qaldırmağı bəs edər ki, yüzlərlə uşaq qanına qəltan olsun, acından ölsün, soyuqdan donsun, sağlamlığını itirsin, ailələr pərən-pərən düşsün. Məgər bu vikinqlərin tətbiq elədiyi üsul deyil, onların sinfi qardaşları da körpələri nizənin ucuna keçirmirdimi?

Başqa nə gözləmək olardı ki? Bu dəfə də bələdiyyə ilə hökumət əlini həmişəki kimi həqiqətdən çəkdi. Görəsən fəhlələrin, onların balalarının yaşamaq hüququ doğrudanmı ağaları narahat edir? Dövlət hakimiyyəti - fəhlələrin yox, ağaların hakimiyyətidir. Fəhlələr - ağaların qatı düşmənidir. Ona ehtiyacın yoxdursa, düşmənin qarnını niyə doyurmalısan? Əgər fəhlələr Marksla Lenin buyurduğu kimi, kapitalistlərin axırına çıxsalar, hakimiyyəti ələ alsalar, bir də kapitalizmi bərpa etmək üçün böyük pullar xərcləyərlərmi? Əlbəttə, yox! Heç ağıllarının ucundan da keçirməzlər! Hər bir ağlı başında olan adam dərk eləməlidir ki, kapitalistlər nə edirlərsə düz edirlər, əgər fəhlə əməyinə ehtiyacları yoxdursa, pullarını boş yerə havaya sovurmazlar. Reykyavikin fəhlələri bunu necə lazımdır elə də başa düşdülər. Başa düşdülər ki, bir yol tapıb bu qışı keçirməli, balalarının qarnını birtəhər doyurmalıdırlar, odur ki, varlıları məcbur etməlidirlər ki, nə olursa-olsun bu qış onlara iş versinlər.

1932-ci ilin 9 noyabrında xalq baş götürüb bələdiyyə binasının qarşısına yığışdı. Heç kəsin sözü çəp gəlmədi, heç kəs bir-birini bolşevik agenti, sosialist tör-töküntüsü olmaqda ittiham etmədi; müxtəlif partiyalardan - kommunistlər, sosial-demokratlar və sağçı sosialistlər - olan fəhlələr qapını kəsdirib dayandılar, qət etdilər ki, bələdiyyə üzvləri və ağalar əməkhaqqının azaldılması ilə bağlı qərarı dəyişməsələr, işsizliyin aradan qaldırılmasına əncam çəkməsələr binanı tərk edə bilməyəcəklər. Buna cavab olaraq mötəbər ağalar polisə toplaşanları öldürmək, vurub şikəst etmək əmri verdilər. Araya qırğın düşdü. Fəhlələr hamı bir nəfər kimi düşmənlərinin üstünə tökülüşdülər. Təbii ki, vahid birlik cəbhəsi də elə həmin gün yarandı. Sövdələşmək, sakit inkişaf söhbətləri ilə baş qatmaq zamanı deyildi. Birləşən fəhlələr müqavimət göstərib qalib gəldilər. O gün hamı dərk etdi ki, fəhlə birliyini heç nə ilə qırmaq mümkün deyil və yalnız əməkçilərin vahid cəbhəsi ağaları xalqın tələbini - ona çörək və iş vermək tələbini - icra etməyə məcbur edə bilər.

Şahidlər, iştirakçılar 9 noyabr 1932-ci ildə bələdiyyə binası qarşısında baş verənlər barədə çoxlu ibrətamiz şeylər danışırdılar. Mənsə, tanışlarımdan eşitdiyim bir epizoddan, söz açmaq istəyirəm. Əhvalat Axsaq Turun başına gəlib.

Qoca o mötəbər gündə qapının ağzını kəsdirənlərin arasında olub və tələb edib ki, onları da iclasa buraxsınlar. Qapını polislər qoruyurmuş. Dava başlayıb. Camaat gözəl başa düşürmüş ki, ölkədə iki millət - kasıblar və varlılar milləti yaşayır. Axsaq Tur kasıblar dəstəsinin ön sıralarında dayanıbmış. Yeganə silahı da yumruqları imiş. Həyətdəki iri dirəyi görəndə onu götürməyə yüyürüb. Təbii ki, dirək böyük olduğundan onu yerindən tərpətmək, üstəlik, qaldırıb polisin başına endirmək tək adamın işi deyilmiş. Tur dirəyi götürməyə tələsəndə başına iki polis dəyənəyi dəyib. Axı ancaq xalqın başından vurmaq əmr olunmuşdu. Qoca səndirləyib. Bir müddət huşsuz qalıb. Yoldaşlarından ikisi həkimə aparmaq üçün ona qalxmağa kömək edib. Tur iki yerdən yaralanıb. Başını sarıyan kimi qoca yenidən döyüş meydanına atılıb, amma bu dəfə əlinə bir paya alıb. Əlini sağa-sola yelləyərək qabağına çıxan polisi şil-küt edib. Bu, əlindəki paya qırılana, üz-gözünə polis dəyənəyi dəyənə, huşunu itirib yıxılana qədər davam edib. Polislər bu dəfə də onun başından vurublar. Qoca bir də vahid cəbhə qalib gələndən sonra özünə gəlib. Şəhərin ağaları əmək haqqını azaltmaqdan daşınıb, işsizliyi aradan qaldırmaq üçün vəsait buraxmağa razılıq veriblər.

Evə qayıdandan sonra bir gün küçədə qoca Turla qarşılaşdım. Yaraları çoxdan sağalmışdı, daimi iş yeri vardı. Dedi ki, evində hər şey qaydasındadır. Qızı 9 noyabr ərəfəsində doğub, iki böyük nəvəsi də məktəbə gedir.

-Çox yaxşı uşaqlardı, - qoca əlavə etdi.

-Biz axırıncı dəfə görüşəndə sən dinc inkişafdan dəm vururdun, - qocaya sataşmaq üçün söz atdım.

-Nə deyim, həmişə bolşeviklərə qarşı olmuşam. Elə indi də onlara qarşıyam. Axı onların hamısı anarxistdilər!

-Qulaq as, - dedim. - Hamı səni sakit, dinc adam kimi tanıyır. Nə əcəb 9 noyabrda əl qaldırıb Tanrıya dua eləmək əvəzinə, camaatla bir yerdə davaya girişdin, adam vurdun?

Qoca bu barədə danışmaq istəmirdi. Hər şey aydındı, bu söhbətdə qoca məğlub olmuşdu.

-Səninlə Rusiya barədə nə danışım axı? - dedi. - Siz öz Rusiyanızı elə tərifləyirsiz ki, elə bil sizdən başqa ağıllı adam yoxdur. Axı siz, bambılının birisiz!

Qoca qətiyyətlə çevrilib yoluna davam etdi. Heç məni evinə də çağırmadı. Deyəsən, qoca 9 noyabrda evimdə yox, Rusiyada olmağımı mənə bağışlaya bilmirdi.

-Qulaq as, - arxasınca səsləndim, - hiss eləmirsənmi ki, sən məndən daha ağıllısan. Sən həmin gün vahid cəbhənin sıralarında vuruşmusan, polis dəyənəyi iki dəfə başını yaralayıb, huşunu itirmisən. Sən qalib gəlmisən. Bax, Rusiyada da hər şey elə-belə olub.

-Əşşi, yox ey... sadəcə... təzə doğulan körpəyə xatir, - üzrxahlıq edirmiş kimi deyib uzaqlaşdı.

*Rus dilindən tərcümə edən:*

**Əyyub QİYAS**

